Azərbaycan.- 2020.- 20 dekabr. S. 1; 5.

# Yenə də dünyanın «Ən islahatçı on ölkə»si sırasındayıq

## Dünya Bankı Azərbaycanda iqtisadi islahatların uğurla aparıldığını təsdiqləmişdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin mətbuata açıqlamasında bildirilir ki, Doing Business hesabatındakı məlumat uyğunsuzluqları Dünya Bankının Daxili Auditi tərəfindən araşdırılmış və nəticədə Azərbaycan bu qurumun 2020-ci il hesabatındakı mövqeyini 6 pillə yaxşılaşdırmışdır.

Bu o deməkdir ki, ölkəmiz bir daha dünyanın "Ən islahatçı on ölkə"si sırasında ötənilki yerini tutmuşdur. Ağır müharibəni Zəfər qələbəsi ilə başa vuran Azərbaycanın adının iqtisadi islahatların aparılmasında aparıcı dövlətlərlə bir sırada çəkilməsi qürur doğuran məqamdır.

Yeri gəlmişkən, işğalçı Ermənistan davamlı olaraq bu qurumun hesabatlarında inadla geriyə çəkilməkdədir. Qonşuları ilə əbədi ədavətdə yaşayan və ərazi iddialarından əl çəkə bilməyən faşist dövlətinin çökməsi labüddür.

Azərbaycan uzun illər müharibə şəraitində olmasına baxmayaraq, regionda sülhə və islahatlara səmtlənən dövlət kimi daim göstəricilərini bütün istiqamətlərdə yaxşılaşdırmaqdadır. Dünya Bankının Daxili Audit strukturları tərəfindən son 4 ilin məlumatları araşdırıldıqdan sonra ölkələrin göstəriciləri ilə bağlı məlumatlar yenilənmişdir.

*Ardı 5-ci səh.*

# Yenə də dünyanın «Ən islahatçı on ölkə»si sırasındayıq

## Dünya Bankı Azərbaycanda iqtisadi islahatların uğurla aparıldığını təsdiqləmişdir

*Əvvəli 1-ci səh.*

Müvafiq düzəlişlər aparıldıqdan sonra bu hesabatda Azərbaycanın əldə etdiyi bal 76,7-dən 78,5-ədək artırılmış və nəticədə qlobal reytinq sıralamasında mövqeyimiz 191 ölkə arasında 34-dən 28-ə yüksəlmişdir. Beləliklə, Azərbaycan Dünya Bankı tərəfindən yenidən dünyanın ən islahatçı on ölkəsindən biri kimi qiymətləndirilmişdir. Bir daha vurğulayaq ki, bu qurumun 2019-cu il hesabatında da Azərbaycan dünyanın ən islahatçı on ölkəsindən biri olmuşdur.

Azərbaycan 28 ildir ki, Dünya Bankı ilə sıx əməkdaşlıq edir. Dünyanın mühüm inkişaf institutu olan Dünya Bankı ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlara daim dəstək verib. Azərbaycanın bu təşkilatla əməkdaşlığı bilik və məlumatların mübadiləsinə, texniki dəstəyə və maliyyələşdirməyə əsaslanır, qarşılıqlı əlaqələr tərəfdaşlıq strategiyası çərçivəsində həyata keçirilir. Dünya Bankı ölkəmizdə kənd təsərrüfatı, səhiyyə kimi sahələri, kənd yerlərinin inkişafını, magistral yolların yenidən qurulması üzrə layihələri, həmçinin "elektron məhkəmə" sisteminin tətbiqini və sair sahələri dəstəkləyir.

Əlbəttə, yeni sahələrdə əməkdaşlığın davam etdirilməsi də daim müzakirə mövzusudur. Bu baxımdan Dünya Bankının Azərbaycandakı islahatları belə diqqətlə izləməsi və artıq dəyərləndirilmiş nəticələri yenidən və daha obyektiv qiymətləndirməyə cəhd etməsi başadüşüləndir.

Hesabatın yeni redaktəsində "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə xüsusilə texniki şərtlər üçün sahəvi müayinələrin aparılması proseduru ləğv edilən və texniki şərtlərin qəbul edilməsinə olan müddət azaldılmışdır. Beləliklə, hesabatda texniki şərtlərin və elektrik sistemlərinə qoşulmanın bir paketdə cəmlənməsi nəticəsində elektrikə qoşulma üzrə prosedurların sayı 5-ə, müddəti isə 32 günə qısaldılmışdır.

Ölkəmizdə məhkəmə proseslərinin təyini, hakimlər və vəkillər üçün elektron menecment sisteminin tətbiqi kimi bir sıra mühüm islahatların aparılması da Dünya Bankı tərəfindən təsdiq olunmuşdur.

Sərhəddə ticarət indikatoru üzrə audit qrupu tərəfindən aparılan araşdırmalar nəticəsində "ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 12, "idxala sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 4, "ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 28,5, "idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 26 saat, "ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları)" sub-indikatoru üzrə xərcin 150 ABŞ dolları kimi olması təsbit olunmuşdur. Qeyd edək ki, müvafiq sub-indikatorlar üzrə göstəricilər düzəlişdən əvvəlki hesabatda 17, 14, 33, 33 saat və 250 ABŞ dolları kimi olmuşdur.

Diqqətçəkən məqamlardan biri odur ki, Dünya Bankı hesabatı yenilədikdən sonra belə halların baş verməməsi üçün bir sıra addımlar atmışdır. Belə ki, aidiyyəti daxili nəzarət qurumlarının ölkələrin hesabatdakı mövqeyinə və işgüzar imicinə xələl gətirən bu uyğunsuzluqlara yol verən məsul işçiləri barədə bankın biznes etikası qaydalarına uyğun inzibati tədbirlər görüləcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***